UOT 78.071.1

E.Məmmədova
Sənətşünaslıq üzrə fəlsəfə dokturu, dosent
Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası
AZ1014, Ş.Bədəlbəyli küçəsi 98

QARA QARAYEV – 100

Açar sözlər: *əsər, bəstəkar, bədii, mədəniyyət, musiqi ifadəsi*

Təqdim olunan iş XX əsrin görkəmli Azərbaycan bəstəkarı, SSRİ xalq artisti Qara Qarayevin yaradıcılığına həsr olunubdur. Burada sənətkarın fəaliyyətinin çöxşaxətli qolları nəzərdən keçirilir, onun milli musiqi mədəniyyətinə verdiyi tövfələr açıqlanır. Obraz aləmi və musiqi ifadə vasitələrinin zənginliyi ilə seçilən bəstəkarın müxtəlif janrlarda yazdığı əsərlərinin yeniliyi, bədii dəyəri haqqında fikirlər söylənilir. Qeyd olunur ki, dahi Ü.Hacıbəyli ənənələrinin parlaq davamçısı olan Q.Qarayev bəstəkar, pedaqoq, ictimai xadim kimi fəaliyyət göstərmiş vəbu ənənələri daha yüksək səviyyə ucaltmışdır.

Э.Мамедова

КАРА КАРАЕВ – 100

Ключевые слова: *произведение, композитор, искусство, культура, музыка*

Данная работа посвящена творчеству выдающегося азербайджанского композитора, народного артиста СССР Кара Караева. Отмечается широта творческой деятельности композитора и его вклад в развитие национальной музыкальной культуры. Высказываются мысли о новаторстве и художественной ценности сочинений композитора, отличающихся богатством образного мира и средств музыкальной выразительности. Яркий продолжатель традиций великого У.Гаджибейли, К.Караев своей композиторской, педагогической деятельностью, поднял эти традиции на еще более высокую ступень.

E.Mammadova

GARA GARAYEV – 100

Key words: *work, composer, art, culture, music*

This work is devoted to the work of the outstanding Azerbaijani composer, People's Artist of the USSR GaraGarayev. The work notes the breadth of the composer's creative activity and his contribution to the development of the national music culture. There are thoughts about the novelty and artistic value of the composer's works, distinguished by the richness of the figurative world and the means of musical expressiveness. A bright continuer of the traditions of the great U. Hajibeyli, G.Garayev with his compositional and pedagogical activity, raised these traditions to an even higher level.

Azərbaycan xalqının musiqi tarixini yaradan şəxsiyyətlər arasında SSRİ xalq artisti, Dövlət mükafatları laureatı,görkəmli bəstəkar, pedaqoq, ictimai xadim Qara Qarayev müstəsna yer tutur. Anadan olmasının 100 illik yubileyi ərəfəsində bəstəkar böyük xalq məhəbbəti və yüksək dövlət qayğısı ilə xatırlanır. Möhtərəm Prezidentimiz, cənab İlham Əliyevin sərəncamı ilə Qara Qarayevin 100 illik yubileyi gələn il xüsusi təntənə ilə qeyd olunacaq. Respublikamızda və xaricdə bu hadisə ilə bağlı tədbirlər həyata keçirilir və onlardan biri də bugünki konfransdır.

Qara Qarayev musiqisinə göstərilən bu diqqət təsadüfi deyil və onunla bağlıdır ki, qüdrətli sənətkardaim insanlara öz sənəti ilə mənəvi zənginlik aşılamış, qəlblərində xoş hisslər oyatmışdır. Musiqi obrazlarının zənginliyi, genişliyi ilə seçilən bəstəkarın əsərləri həm qədim tariximizin səhifələrindən, həm də müasir günlərdən və gələcək həyatdan həyacanla danışır. Ü.Hacıbəylidən sonra milli musiqi mədəniyyətinin inkişaf yollarını müəyyən edən sənətkarın irsi çoxşaxəlidir.Hər bir görkəmli bəstəkar kimi, Qarayev da musiqi janrları arasında "ayrı-seçkiliyə" yol verməmişdir. Onun gələminin toxunduğu hər nümunədə - istər qlobal konsepsiyalı simfoniya olsun, istərsə də insan qəlbinin xəfif bir duyğusu, bir ovqatını ifadə edən vokal və instrumental miniatürdə, müəllif əsl sənətkar kimi çıxış etmişdir.

Q.Qarayevin musiqisində janrlar geniş təmsil olunub. O, demək olar ki, bütün janrlarda əsərlər yaratmış və onların hər birində böyük nailiyyətlər qazanmışdır. Burada, Q.Qarayevin üç simfoniyası və kiçik həcmli simfonik əsərləri, o cümlədən "Leyli və Məcnun" simfonik poeması, "Alban rapsodiyası", "Vyetnam süitası", "Don-Kixot" simfonik qravürlərini xatırlamaq olar.

Milli balet janrının klassik səhifəsini açan "Yeddi gözəl" və "İldırımlı yollarla" baletləri, kinofilmlərə və dram tamaşalarına yazdığı musiqi sənətkarın yaradıcılığının dəyərli hissəsidir. Qara Qarayevin baletlərinin yaranması o dövrün mədəni həyatın əlamətdar hadisəsinə çevrilmişdir. Dolğun, təsirli boyalarla yazılmış bu baletlərdə Qarayev görkəmli sələflərinin ənənələrini inkişaf etdirmiş, bütün coşğunluğu və rəhgarəngliyi ilə ədəbi surətlərin obrazlarını parlaq şəkildə canlandıra bilmişdir. Təsadüfi deyil ki, bu əsl mənada simfonikləşdirilmiş baletlərdə Qara Qarayev bədii formanın, orkestirləşdirmənin mahir ustası, ilhamlı melodiyaların müəllifi kimi çıxış edir.

Müasir simfonizmə, musiqi teatrına misilsiz tövhələr verən Q.Qarayevin istedadı, eyni dərəcədə parlaq surətdə instrumental və vokal kamera musiqisi sahəsində özünü büruzə verir – A.Puşkininsözlərinə yazılmış romans və "Üç noktyurn"da, 24 prelüd fortepiano silsiləsində, violin və fortepiano üçün "Sonata" və başqa əsərlərdə. Xor musiqisidə Q.Qarayevin yaradıcılıq diqqətindən kənarda qalmayıb: o, Nizaminin söslərinə ilk a kapella "Payız" xorunu, oratoriya və kantataların müəllifidir. Q.Qarayev sənətkar kimi ona görə qiymətlidir ki, müraciət etdiyi musiqi janrlarının hamısında orijinal yanaşma üsulu və təfsir nümayiş etdirmiş, bunların hər birində öz yeni sözünü demiş və bununla da bir çox mərhələ əsərləri yaratmağa müvəffəq olmuşdur.

Q.Qarayevin musiqiyə gəlişi və erkən yaradıcılıq sınaqları bəstəkarlıq məktəbimizin ən mürəkkəb janrlarda ilk nailiyyətləri əldə etdiyi dövrə - 30-40-cı illərə təsadüf edir. O, bu zaman Ü.Hacıbəylinin ardınca gələn yeni bəstəkarlar nəslinin parlaq nümayəndəsi kimi fəaliyyətə başlamış, sonradan isə Soltan Hacıbəyov, Fikrət Əmirov, Cövdət Hacıyev, Tofiq Quliyev, Niyazi kimi sənət dostları ilə çiyin-çiyinə çalışaraq, Azərbaycan musiqisinin görkəmli təmşilçisinə çevrilmişdir. Azərbaycanda simfoniya janrının təməlini qoyan bəstəkarlardan biri olmuş Q.Qarayevin, sonradan yazdığı simfonik əsərləri, məşhur dirijorların təfsirində ən böyük musiqi salonlarında səslənərək hərarətlə qarşılanmışdır.

Q.Qarayevin çoxşaxəli yaradıcılığı Azərbaycan musiqisi tarixində bir sıra janrların mənimsənilməsində və milli nümunələrin meydana gəlməsi, musiqisimizin məzmun dairəsinin genişlənməsi, yeni mövzularla zənginləşməsi prosesini əyani şəkildə əks etdirir. Onun yaradıcılığının başlıca məziyyətlərindən biri də - müasirliyidir. Müasirlik bəstəkarın təkcə bugünki həyatı əks etdirən – mövsulara marağı ilə məhdudlaşmır. Bu, dünyamızı narahat edən suallara cavab axtaran Q.Qarayevin zamanın nəbzini tutmaq bacarığında, XX əsrin mürəkkəb yazı texnikasından istifadə etməklə bərabər, dinləyicisi ilə ona yaxın və aydın olan bir tərzdə söhbətləşmə qabiliyyətində ifadə olunmuş müasirlikdir. Məhz bu səmimilik Q.Qarayevin musiqisinə ümumxalq məhəbbətini şərtləndirmişdir. Bəstəkarın musiqisinin şən səhifələri də, fikirli, kədərli, fəlsəfi və psixoloji dərinliyi ilə seçilən obrazları da qəribə bir nikbinlik,

həyatsevərliklə aşılanmışdır. Bu, Q.Qarayevin həyat eşqindən, gerçəkliyi işiqlı boyalarla qavrayışından irəli gəlir. Yəni, bəstəkarın musiqisi, həyat kimi rəngarəngdir, xalq musiqisinin zəngin intonasiya qaynaqlarından qidalanmış və eyni zamanda, müxtəlif qütblərə aid üslub əlamətlərini mükəmməl şəkildə sintezindən yoğrulmuşdur.

Q.Qarayev böyük pedaqoq olmaqla da musiqimizin tərəqqisi yolunda çalışmışdır. O, əsl mənada güclü bəstəkarlıq məktəbini yatarmışdır və onun yetirmələri – Vasif Adıgözəlov, İsmayıl Hacıbəyov, Məmməd Quliyev, Fərhəng Quliyev; bu gün fəaliyyət göstərən – Arif Məlikov, Xəyyam Mirzəzadə, Fərəc Qarayev, Firəngiz Əlizadə, Azər Dadaşov və başqaları, XX əsr Azərbaycan musiqisi korifeyinin ənənələrini XXI əsrə qətirib çıxarmış, müəllimlərindən fəth etdiyi zirvədə saxlamış və həmin nailiyyətlər səviyyəsində ümumdünya miqyasında təmsil etmişlər.

Beləliklə, bəstəkar, pedaqoq, ictimai xadim kimi dünya musiqi tarixində iz qoyub-getmiş Qarayevin yaradıcılığı Azərbaycan musiqi tarixinin bütöv bir mərhələsidir. Mədəniyyətimizin tərəqqisi uğrunda var gücü ilə çalışan bəstəkarın çoxşaxəli yaradıcılığı və fəaliyyəti musiqimizin ən parlaq sahifələrindən biridir.

ƏDƏBİYYAT

1. Карагичева Л. Кара Караев. М., 1957.
2. Карагичева Л. Балеты Кара Караева. М., 1960.
3. Абасова Э. О новаторских тенденциях в творчестве К.Караева. Баку, 2000.
4. Карагичева Л. Кара Караев: личность, суждения об искусстве. М., 1994.

Məqalənin redaksiyaya daxil olma tarixi: 25.04.2018
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 28.06.2018
Məqalənin çapa qəbul olunma tarixi: 05.07.2018
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Ellada Hüseynova
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.